# Şəki: sosial-iqtisadi uğurlar yetərincədir

**Bu günlərdə Şəki Şəhər İcra Hakimiyyətində ötən ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş yığıncaq keçirilmişdir. Yığıncaqda Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov ətraflı məruzə ilə çıxış etmişdir. Natiq qeyd etmişdir ki, oktyabr ayının doqquzunda cənab Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə rəhbəri iqtisadiyyatın uğurla inkişaf etdiyini, qeyri-neft sektorunun 2,5, kənd təsərrüfatının 2,8 faiz artdığını bildirmişdir.**

Natiq daha sonra qeyd etmişdir ki, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şəki şəhərində başqa sahələrdə olduğu kimi, son illərdə turizm sahəsinin inkişafı ilə bağlı mühüm layihələr həyata keçirilmiş, "Aşağı Karvansaray" kompleksi, "Şəki xanlarının evi" bərpa olunmuş, ən müasir tələblərə cavab verən "Şəki Saray", "Sheki Palace" və "Yaffle İnn" mehmanxanaları, "Şəki Park" istirahət mərkəzi, "Marxal" Müalicə-İstirahət Kompleksi inşa edilmiş, ticarət və xidmət obyektləri istifadəyə verilmiş, geniş abadlıq-quruculuq işləri görülmüşdür. Şəhərimizdə mütəmadi olaraq keçirilən beynəlxalq "İpək Yolu" musiqi festivalı, eləcə də şirniyyat, teatr, zərb alətləri festivalları xalqımızın qeyri-maddi mədəni irsinin qorunub saxlanılmasında və təbliğində, eyni zamanda, şəhərin turizm potensialının genişləndirilməsində və regionun beynəlxalq səviyyədə tanınmasında mühüm rol oynayır.

Həyata keçirilən tədbirlər nəticəsində Şəki turistlər üçün cəlbedici məkana çevrilmiş, son beş ildə rayonu ziyarət edənlərin sayı yeddi dəfədən çox artaraq 150 min nəfərə çatmışdır. Bu işlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sentyabrın 27-də "Şəki rayonunun Kiş kəndində abadlıq-quruculuq işləri aparılmasına dair tədbirlər haqqında" Sərəncam imzalayıb. "Kiş alban məbədi"nə aparan dairəvi avtomobil yolunun tikintisini və yolboyu ərazinin abadlaşdırılmasını nəzərdə tutan Sərəncam Şəki rayonunun mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi məqsədini daşıyır. Qeyd etmək istəyirəm ki, cənab Prezidentimiz qısa müddət ərzində şəhərimizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və abadlıq-quruculuq işlərinin aparılması üçün 12 sərəncam imzalamışdır. Mən bir daha bütün şəkililər adından möhtərəm Prezidentimizə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.





2017-ci ilin 9 ayında ilkin hesablamalara görə, rayonumuzda faktiki qiymətlərlə 279 milyon 786 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2016-cı ilin yanvar-sentyabr ayları ilə müqayisədə 92 faiz təşkil edir. Buraxılmış məhsulun 9 faizi dövlət, 91 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 1511 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əməkhaqqı 245 manat olmuşdur. 2017-ci ilin 9 ayında Şəki rayonunda 2636 yeni iş yeri açılmışdır ki, onların da hamısı daimi iş yerləridir.

Bəhs olunan dövrdə Şəkidə əməkhaqları, pensiyalar və ünvanlı sosial yardımların əhaliyə çatdırılmasında, əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə təmin olunması istiqamətində bir sıra işlər görülmüşdür. 2017-ci ilin 9 ayı ərzində Şəki rayonu üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 15482 ailənin 78885 ailə üzvünə 2 milyon 253 min 410 manat məbləğində ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. Rayon ərazisində taxıl istehsalçıları tərəfindən ötən ilin payızında əkilmiş 66634 hektar taxıl sahəsində yetişən məhsulun vaxtında və itkisiz yığılması üçün tərəfimizdən zəruri tədbirlər görülmüşdür. Bu il taxıl sahələrindən 214 min ton taxıl istehsal olunmuş, hər hektardan orta məhsuldarlıq 33 sentner təşkil etmişdir. İstehsal olunan məhsul keçən illə müqayisədə 21 min ton çoxdur. 2018-ci ilin məhsulu üçün 65500 hektar sahədə payızlıq taxıl əkini proqnozlaşdırılmışdır.

Şəkidə əhalinin tarixən əsas məşğuliyyət sahələrindən biri baramaçılıq olub. "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncam ölkəmizdə ipəkçiliyin müasir infrastrukturunun yaradılması, barama toxumçuluğunun təşkili istiqamətində atılan növbəti mühüm addım olmaqla yanaşı, barama istehsalının dinamik inkişafında mühüm rol oynamışdır.

Ötən ilin payız mövsümündə rayonda 50 min yerli, 25 min xaricdən gətirilmiş tut tingi əkilmiş, yeni kümxanalar qurulmuş, gənc kümdarların hazırlanması istiqamətində maarifləndirmə tədbirləri görülmüşdür. Həyata keçirilən bu və ya digər tədbirlər rayonda barama istehsalının inkişafına müsbət təsir göstərmişdir.

Rayonda 2015-ci ildə cəmi 200 kiloqram barama istehsal edildiyi halda, 2017-ci ildə istehsalın həcmi 18 tona çatdırılmışdır. Məhz ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən operativ tədbirlər nəticəsində bu sahədə ciddi dönüş yaranmış, Şəki ipək kombinatı öz fəaliyyətini bərpa etmişdir. 2018-ci ildə baramaçılığın inkişafına nail olmaq üçün indidən geniş hazırlıq işlərinə başlanmalıdır. Ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələri əldə rəhbər tutaraq 2018-ci ildə rayonumuzda 70 ton barama istehsal edilməsi nəzərdə tutulmuşdur. Açığını deyim ki, daha çox barama istehsal olunması üçün rayonumuzda kifayət qədər yem bazası mövcuddur. İndi qarşımızda duran ən başlıca vəzifə rayon ərazisində mövcud olan bütün toxmacar bağlarının, eləcə də yol və sahə kənarlarında, ictimai yerlərdə olan toxmacar ağaclarının dəqiq uçotunu aparmaq, qısa bir müddət ərzində onlara aqrotexniki qaydalara uyğun olaraq qulluq göstərilməlidir.

Son illərdə ölkə başçısı tərəfindən tütünçülüyün inkişafına göstərilən diqqət və qayğı nəticəsində yerlərdə istehsalçılar arasında bu sahəyə maraq artmış, rayonumuzda tütünçülüyün inkişafında ciddi dönüş yaranmışdır. Nəticədə, əgər 2015-ci ildə rayonda cəmi 596 hektar sahədə tütün əkilmişdisə, 2017-ci ildə bu rəqəm 843 hektara çatdırılıb. Hazırda rayonun 11 kəndində 2 minə yaxın sakin tütünçülüklə məşğul olur. Bu il rayonda 2 min 600 ton quru tütün istehsalı proqnozlaşdırılır. Son məlumatlara əsasən, artıq 2238 ton məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 164 ton çoxdur. Əminəm ki, bu il biz tütün sahələrindən bol məhsul istehsalına nail olacağıq.

Qərzəkli meyvələrin vacib kənd təsərrüfatı məhsulu olması, təbabətdə və şirniyyat istehsalında önəmli rol oynaması, rentabelli olması və sair amillərə görə istehsalının genişləndirilməsinin vacibliyini nəzərə alaraq əhali arasında yeni qərzəkli bağçılıq təsərrüfatlarının yaradılması istiqamətində maarifləndirmə tədbirləri həyata keçirilir və bu sahəyə xarici investorların cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılır. Cənab Prezidentimizin qarşıya qoyduğu vəzifədən irəli gələrək 2017-ci ilin yaz mövsümündə Şəkidə 58,5 hektar sahədə yeni fındıq bağı salınmışdır. Rayonda fındıq bağlarının ümumi sahəsi 1761, 5 hektara çatdırılmışdır. Bu ilin sonunadək rayonda 700 hektar əlavə fındıq bağı salınması nəzərdə tutulur.

Cənab Prezidentimizin kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində qarşıya qoyduğu əsas vəzifələrdən biri də yararsız torpaqların istifadəyə cəlb olunması, yeni kənd təsərrüfatı texnikalarının alınması, iri fermer təsərrüfatlarının yaradılması və ixrac məsələsidir. Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezidentimiz qeyd etmişdir ki, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən əsas sahədir. Cənab Prezidentimiz demişdir: **"Ölkəmizdə 38 aqroparkın yaradılması prosesi gedir. Bu işlər tam nəzarət altındadır, mənə müntəzəm olaraq məlumat verilir. Hesab edirəm ki, bu aqropakların uğurlu fəaliyyəti bizim bütün sahibkarların diqqətini cəlb edəcək. Bu həm sahibkarlar, həm dövlət, həm də bizim valyuta ehtiyatlarımızın artırılması üçün çox gəlirli sahədir".**

Məhz cənab Prezidentimizin tapşırığına uyğun olaraq rayonda meyvə, tərəvəz, istixana təsərrüfatı, povloniya ağaclarının yetişdirilməsi, orqanik gübrə istehsalı və qoz ağaclarının əkilməsi üçün böyük "Sənaye - Aqro Park" yaradılmışdır. Bu məqsədlə Şəki Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə 9 min hektar torpaq sahəsi ayrılmışdır.

Hazırda bağda 200 nəfər işlə təmin olunmuşdur. Ərazidən bu il 500 tona yaxın məhsul əldə olunmuş və yerli bazarlara çıxarılmışdır. Bu layihə ixrac layihəsidir. Gələn il məhsulun xarici bazarlara çıxarılması üçün məqsədyönlü iş aparılır.

2017-ci ildə Şəkidə görüləcək tikinti, təmir və abadlıq işləri müəyyənləşdirilmiş, şəhər icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə şəhərdə aparılacaq yolların əsaslı təmiri və abadlıq işlərinin titul siyahısı təsdiqlənmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də Şəki rayonu ərazisində respublikanın ayrı-ayrı nazirlik və komitələrinin sifarişi ilə tikinti işləri davam etdirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısının nəticəsi olaraq 2017-ci ildə Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin 3-cü mərhələsinə başlanılmış və işlər sürətlə davam etdirilir.

"ASAN" Xidmətin Şəki Ərazi idarəsi üçün binanın tikintisi və "ASAN-ABAD" Keramika Mərkəzi layihəsi çərçivəsində ayrılmış binanın əsaslı təmiri işlərinə başlanmış, 624 yerlik Baş Zəyzid kənd tam orta məktəbinin binasının cari ildə tikintisinin başa çatdırılması planlaşdırılmışdır.

Həmçinin, Şəki bələdiyyəsinin müraciətinə əsasən, Şəki şəhərində 80 yerlik Qarışıq tipli Uşaq Evinin tikintisinə icazə verilmiş və tikinti işlərinin ilin sonuna kimi başa çatdırılması planlaşdırılmışdır.

2017-ci ilin 9 ayı ərzində "Azəravtoyol" ASC-nin sifarişi ilə Şəki "12 -li Yol İstismarı" MMC tərəfindən ümumi uzunluğu 17,1 km olan Şəki-Aşağı Göynük-Baş Göynük-Baş Şabalıd avtomobil yolunda tikinti işləri davam etdirilmişdir. Həmçinin "Yol İstismarı" MMC tərəfindən Şəki şəhər Marxal İstirahət Zonasına gedən 6,4 km uzunluğu olan avtomobil yolunda asfalt-beton örtük qoyulması üçün torpaq yatağının hazırlıq işləri başa çatdırılmışdır.

Hesabat dövründə təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkili daim diqqət mərkəzində saxlanmışdır. Şəkinin təhsil işçiləri də gənc nəslin təlim-tərbiyəsi, onların kamil insan və hərtərəfli şəxsiyyət kimi yetişməsi işini şərəflə yerinə yetirir. Sevindirici haldır ki, rayonumuzun şagirdləri bir çox Respublika səviyyəli müsabiqələrdə böyük uğur qazanmışlar. Bu il ali məktəbə qəbul üçün ərizə vermiş 1090 nəfərdən 674 nəfəri tələbə adını qazanmış, 145 nəfəri 500-dən, o cümlədən 60 nəfəri 600 baldan yuxarı nəticə göstərmişdir.

Şəki təhsilinin əldə etdiyi uğurlar dövlətimiz tərəfindən həmişə olduğu kimi, bu il də yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 03 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə şəhər 11 №-li tam orta məktəbin müəllimi Balaşova Gülxanım "Tərəqqi" medalına, şəhər təhsil şöbəsinin metodiki kabinetinin müdiri Firəngiz İbrahimova isə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Şəki Mərkəzi Rayon Xəstəxanası və onun tabeliyində fəaliyyət göstərən tibb müəssisələri tərəfindən 2017-ci ilin 9 ayında əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində müəyyən işlər görülmüşdür.

2017-ci ilin 9 ayında mədəniyyət müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində bir sıra işlər görülmüş, müddət ərzində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmiş, tarixi günlər, bayram tədbirləri yüksək səviyyədə qeyd olunmuşdur. "Avropa Avtobus Turu-2017" layihəsinin "Şəki Avropa şəhərciyi" tədbiri çərçivəsində sentyabrın 23-də Şəki şəhərindəki "Marxal" müalicə-istirahət kompleksində Şəki şəhəri rəhbərliyi ilə Avropa İttifaqına üzv ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirlərinin və səfirlikləri təmsil edən şəxslərin görüşü olmuşdur. Layihənin məqsədi Azərbaycanın regionlarında insanları Avropa İttifaqı barədə məlumatlandırmaq, Avropa dəyərləri və mədəniyyəti ilə yaxından tanış etmək idi. Görüş zamanı Avropa İttifaqına üzv olan dövlətlərin nümayəndələri və şəhər rəhbərliyi gələcəkdə Şəki şəhərində həyata keçirmək istədikləri layihələri və təşəbbüsləri birgə müzakirə etmək imkanı əldə etmişdir.

2017-ci ilin 9 ayında Şəkidə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində bir çox işlər görülmüşdür. Müddət ərzində 205 cinayət hadisəsi qeydə alınmışdır. Qeydə alınan cinayətlərdən 98,4 faizinin açılması təmin edilmişdir. Müddət ərzində Şəki Şəhər-Rayon Polis Şöbəsi tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkomaniya ilə bağlı 34 fakt aşkar edilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq 2017-ci ilin 9 ayında 566 nəfər həqiqi hərbi xidmətə göndərilmişdir.

2017-ci ilin 9 ayında 214 nəfər vətəndaş Şəki Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilmişdir. Müddət ərzində şəhər icra hakimiyyəti başçısı tərəfindən 32 səyyar qəbul keçirilmiş, 201 nəfər vətəndaş dinlənilmiş, 222 müraciət səsləndirilmişdir.

Məruzəçi sonda qeyd etmişdir ki, bütün sahələrdə əldə olunan uğurlar ilin qalan dövründə də davam etdiriləcək, qarşıya qoyulmuş vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**